**FƏNN**: QİYMƏT VƏ QİYMƏTLƏNDİRMƏ

# MÖVZU 14: QİYMƏTİN ƏMƏLƏ GƏLMƏSİ VƏ PUL TƏDAVÜLÜ

**Müəllim**: Rafiq Vahid oğlu Abbasov

**Tarix :** 2025

**İxtisas**: Marketinq

**Qrup**: $3^1$,$3^2$,$3^3$

**Mühazirə:** Teorik

**FTN 6**: Xarici ticarətdə, vergi sistemində, pul və kredit sistemində qiymətlərin formalaşmasını, onların ölkə və xarici bazarlarda ticarət əlaqələrində tətbiqi metodologiyasının öyrənilməsi təmin edilir

## P L A N

1. Qiymətlərin və pul tədavülünün qarşılıqlı asılılıqlarının nəzəri aspektləri.
2. Bazar iqtisadiyyatlı ölkələrdə qiymətlərin və pul tədavülünün tənzimlənməsinin xüsusiyyətləri.
3. Qiymətlərin artmasının valyuta məzənnəsinə və beynəlxalq ticarətə təsiri.

## ƏDƏBİYYAT


1. Çudakov A.D. . "Qiymət və qiymətin əmələ gəlməsi" Dərslik. Bakı, "Elm", 2009, rus dilindən tərcümə, 312 səh.

2. Kazımlı X., Bayramov Q., Sadıqov B., Quliyev İ., Hümbətova S., Məmmədov İ. Qiymətin əmələ gəlməsi. Dərslik Bakı, "Müəllim", 2019, 498 səh.

3. Qarayev İ. Qiymətin əmələ gəlməsi. Dərslik. Bakı, UNEC, 2000, 358 səh.

4. Qafarov N.C., Quliyev İ.Q. Qiymət və qiymətləndirmə. Bakı, ADİU, 2017, 375 səh.

## *1. QİYMƏTLƏRİN VƏ PUL TƏDAVÜLÜNÜN QARŞILIQLI ASILILIQLARININ NƏZƏRİ ASPEKTLƏRİ*

Bazar iqtisadiyyatı özünün normal inkişafı üçün spesifik pul bazarını formalaşdırır. *Pul bazarı* – pula tələbin və onun təklifinin qarşılıqlı təsiri nəticəsində pulun qiymətini ifadə edən tarazlı faiz dərəcəsinin əmələ gəldiyi bazardır. Bazar iqtisadiyyatının fəaliyyət göstərməsi, onun sabit sürətlə artımının, qiymətlərin səviyyəsi və dinamikasının, məşğulluğun təmin olunması üçün müəyyən pul kütləsi tələb olunur.

Pul kütləsi fiziki və hüquqi şəxslərə, həmçinin dövlətə məxsus olan təsərrüfat dövriyyəsinə xidmət göstərən alqı və tədiyə vəsaitlərinin ümumi həcmini əks etdirir.

Tədavüldə olan pul kütləsi pul təklifini təşkil edir.

Qiymətin əmələ gəlməsinin tədavüldə olan pulun miqdarından asılılığı dəyər və pul tədavülü qanunlarının fəaliyyəti vasitəsilə təzahür edir. Belə ki, əmtəələrin qiyməti dəyər əsasında müəyyən edilməli, tədavüldəki pulun miqdarı isə fəaliyyətdə olan qiymətlər sisteminə müvafuq olaraq istehsal edilən əmtəə və xidmətlərin həcminə uyğun gəlməlidir.

Pul tədavülü qanununun pozulması həm dövriyyənin təlabatına nisbətən onun artıq emissiyası həyata keçirildikdə və pul vahidinin tədavül sürəti yüksəldikdə pulun aktiv rolu, həm də pul emissiyası pul amillərindən asılı olmayaraq yaranan qiymət artımına kömək etdikdə onun passiv rolu sayəsində baş verir.

Birinci qrup amillərə (*pul amilləri*) pul tələbinin əmtəə təklifindən çox olduğu və nəticədə pul tədavülü qanununun tələblərinin pozulmasının baş verdiyi hallar daxildir.

İkinci qrup amillərin (*qeyri-pul amilləri*) elementləri əmtəələrin xərcləri və qiymətlərinin ilkin artımına səbəb olan hallardır ki, sonradan da pul kütləsi onların səviyyəsinə gətirilir.

Əslində hər iki qrup amillər bir-birinə qarışır və qarşılıqlı fəaliyyət göstərməklə əmtəə və xidmətlərin qiymətini artırırlar.

Beləliklə, bazar təsərrüfatı şəraitində pul tədavülü və dəyər qanunlarının fəaliyyəti bir meyl kimi təzahür edir. Buna görə də əmtəələrin faktiki qiymətləri bir çox bazar amillərinin təsiri altında öz dəyərlərindən kənarlaşır, tə-

davüldəki pulun miqdarı isə, adətən, inflyasiya prosesləri ilə əlaqəli olan tədiyə qabiliyyətli tələbin təmin edilməsi dərəcəsi ilə tənzimlənir.

Bazarda əmtəələrin tələb və təklifinin nisbətindəki hər hansı bir uyğunsuzluq qiymətlərin hərəkətində özünü göstərir. Belə ki, artıq təklif onların nisbi azalmasına səbəb olur, tələb edilən əmtəə və xidmətlərin çatışmazlığı isə qiymətləri yüksəldir və bununla da qiymət uyğunsuzluğunu gücləndirir.

Nəticədə əmtəənin qiyməti (*P*) iki əsas göstəricidən, yəni istehlakçılar tərəfindən əmtəəyə öz tələbatlarını ödəmək üçün ayırdıqları pul vəsaitlərinin kütləsindən (*M*) və bazarda satılmaq üçün təklif edilən əmtəənin miqdarından (*Q*) asılı olur:

$$P = \frac{\sum M}{\sum Q}.$$

Tənliyin hər iki hissəsini $\sum Q$ məxrəcinə vurduqda tələb və təklifin tarazlıq vəziyyətini əks etdirən optimal qiymətə müvafiq gələn $\sum PQ = \sum M$ tənliyini alırıq.

Əgər sonra tənliyin hər iki hissəsini $\sum PQ$ -yə bölsək, $\sum M \,/\, PQ = 1$ alınar. Bu şərtə əməl etdikdə qiymətlər sabit qala bilər və sahə səviyyəsində inflyasiya prosesləri dayandırılır.

Lakin praktikada kapitalların sahələrarası "*axını*" baş verdiyinə görə dayanıqlı tarazlığa nail olmaq mümkün deyildir. Bununla belə iqtisadiyyatın ayrı-ayrı sahələrinin nisbi tarazlığı daima saxlanılmalıdır. Bu zaman tələb və təklifin nisbəti vahidə yönəldilməlidir. Tələb və təklifin nisbəti vahidə nə qədər yaxın olarsa, sahə səviyyəsində yenidən bölgü proseslərinin miqyası o qədər kiçik və qiymət daha da sabit olar. Əgər nisbət vahiddən azdırsa, müəyyən əmtəənin buraxıldığı sahədə və ya istehsalda yaradılan dəyərin bir hissəsi qiymət vasitəsilə daha mühüm əmtəələrin istehsal olunduğu digər sahələrə keçirilir. Əgər nisbət vahiddən böyükdürsə, onda əmtəənin qiyməti artır və digər sahələrdə yaradılan gəlirin bir hissəsinin, yeni əmtəə buraxan sahə və ya istehsalın xeyrinə yenidən bölgüsü baş verir.

Pul kütləsinin tarazlığına iki bazar elementi, yəni istehsal tərəfindən pula tələb və pul emissiyasını həyata keçirən Mərkəzi bank tərəfindən pul təklifi təsir göstərir. Pul kütləsinin miqdarı əmtəə dövriyyəsinin və dövlətin tələbatları ilə müəyyən olunur. Pul kütləsinin kəmiyyətinə həmçinin pulun tədavül

sürəti, yəni onun tədavül və tədiyə funksiyalarını yerinə yetirərkən intensiv hərəkəti təsir göstərir. Real iqtisadiyyatda tədavüldə olan pul kütləsinin miqdarı daima dəyişilir.

İctimai məhsulun dəyərinin dövranında və gəlirlərin dövranında pulun hərəkət sürəti (*V*) aşağıdakı kimi müəyyən olunur:

$$V = \frac{ÜDM}{M}.$$

Bu düstur ümumidir. O, həmçinin aşağıdakı formanı da ala bilər:

$$V_1 = \frac{ÜDM}{M_1} \quad \text{və ya} \quad V_2 = \frac{ÜDM}{M_2}.$$

Bu göstərici pul tədavülü ilə iqtisadi inkişaf prosesləri arasındakı əlaqəni ifadə edir. Əgər pul kütləsi yavaş dövr edirsə, bu o deməkdir ki, milli məhsulun yerləşməsi (*sərf olunması*) əmsalı aşağıdır. Pul tədavülünün yüksək sürəti əmtəələrin tez yerləşdiyini və yüksək konyunkturanı göstərir.

Pul tədavülünün sürəti lazım olan pulun miqdarına tərs mütənasibdir. Belə ki, pulun yüksək tədavül sürəti əlavə emissiyaya tələbatı azaldır. Əmtəə və xidmətlərin eyni həcmində pul kütləsinin artırılması pulun qiymətdən düşməsinə səbəb olur, yəni nəticə etibarilə inflyasiya prosesi amillərindən birinə çevrilir. Pul tədavülünün yavaşıması satılmamış məhsulun, əmtəə ehtiyatlarının yığılması, kapitalın bir hissəsinin "*təsərrüfat dövriyyəsindən çıxardılması*" deməkdir.

Tədiyə dövriyyəsində pulun dövr etməsi bank hesablarındakı pulların cəminin tədavüldə olan pul kütləsinin orta illik kəmiyyətinə nisbəti ilə müəyyən olunur. Bu göstərici nağdsız hesablaşmaların sürətini ifadə edir.

Pul tədavülünün sürətinə həmçinin aşağıdakı ümumi iqtisadi amillər: istehsalın tsiklik inkişafı, onun artım sürəti, qiymətlərin hərəkəti və pul amilləri: tədiyə dövriyyəsinin strukturu (*nağd və nağdsız pulların nisbəti*), kredit əməliyyatlarının və qarşılıqlı hesablaşmaların inkişafı, kreditə görə faiz dərəcələri təsir göstərirlər. Pulun tədavül sürəti bu ümumi amillərdən başqa gəlirlərin ödənilməsinin dövriliyindən, əhalinin öz vəsaitlərini xərcləməsi müntəzəmliyindən, qənaət və yığımın səviyyəsindən asılıdır.

Bazarda əmtəənin fiziki həcminin çoxalması və ya onun qiymətinin yüksəlməsi pul kütləsinin həcminin genişləndirilməsini və ya pulun tədavül sürətinin artırılmasını tələb edir. Pul kütləsinin artımı və ya sabit qiymətlərdə onun dövriyyəsinin sürətlənməsi həmçinin əmtəə və ya xidmətlər təklifinin müvafiq çoxaldılması ilə əlaqələndirilməlidir.

Praktikada pul kütləsinin artım sürəti çox vaxt əmtəə və xidmətlər təklifinin artımını ötüb keçir. Pul və əmtəə kütlələrinin həcmləri arasındakı uyğunsuzluq qiymətlər sistemi vasitəsilə tarazlaşdırılır ki, bu da inflyasiya artımına səbəb olur. İnflyasiya nəticəsində tədricən yeni qiymətlər miqyasına keçilməsi baş verir.

Azərbaycan iqtisadiyyatının keçid dövrü onun pul-kredit dairəsinin fəaliyyətinə müvafiq təsir göstərmişdir. Ölkəmizdə pul tədavülünün tənzimlənməsi inflyasiya və ÜDM-in dinamikasının gözlənilən sürətləri əsasında pul kütləsinə olan tələbatın Mərkəzi bank tərəfindən müəyyən olunmasında təzahür edir. Pul vəsaitlərinə tələbat ÜDM-in pul kütləsinin kəmiyyəti göstəricisinə olan nisbəti kimi müəyyən edilir.

Qiymətlərin artması pulun alıcılıq qabiliyyətinin aşağı düşməsinə səbəb olur. Bunu, adətən, istehsalın kəskin surətdə azalması nəticəsində ölkənin iqtisadi inkişafının əlverişsiz vəziyyəti, həmçinin dövlətin öz borclarını əsaslandırılmamış kağız pul emissiyası vasitəsilə ödəmə cəhdi doğurur. İqtisadiyyatın məqsədə uyğun olmayan səmərəsiz strukturu, bəzi istehsalların yüksək inhisarlaşması, xarici valyutaya nisbətdə milli pul vahidinin məzənnəsinin aşağı düşməsi, dövlətin gəlirləri və xərclərinin uyğunsuzluğu tədavüldə olan pul kütləsinin artmasına gətirib çıxardır.

Pul kütləsi və onun əmtəə ilə təmin olunması arasındakı tarazlığın pozulmasını müəyyənləşdirmək üçün qiymətlər indeksi göstəricisindən istifadə olunur. Qiymətlər indeksi cari (*hesabat*) dövrün istehlak əmtəə və xidmətlərinin müəyyən dəstinin (*bazar səbəti*) alış qiymətinin bazis dövrünün eyni və oxşar əmtəə və xidmətlər qrupunun ümumi qiymətinə olan nisbəti ilə müəyyən edilir.

$$\textit{Qiymətlər indeksi} = \frac{\textit{Hesabat dövründə bazar səbətinin qiyməti}}{\textit{Bazis dövründə oxşar bazar səbətinin qiyməti}}$$

Qiymətlərin artmasının ölçülməsinə bu cür yanaşma müəyyən çatışmazlıqlara malikdir. Belə ki, istehlak səbətindəki əmtəə və xidmətlər dəstinin xeyli müddət eyni qalması (*dəstdə dəyişiklik adətən 8-10 ildən bir baş verir*) istehlakın real strukturunda baş verən çox sürətli dəyişiklikləri bəzən nəzərə almır. "*İstehlak qiymətləri indeksi*" göstəricisi inflyasiyanın dinamikasına tam uyğun gəlməsə də, özünün sosial yönümlüyü ilə makroiqtisadi təhlil üçün daha münasib sayılır.

Qiymətlərin artımı pul emissiyası olmadan mümkün deyildir. Lakin pul kütləsinin artması ilə qiymətlərin dinamikası arasında birbaşa asılılıq da yoxdur. Emissiyanın genişləndiyi dövrdə qiymətlərin nisbətən yavaş artmasına konkret şərait, məsələn, başlıca olaraq istehlak yönümlü geniş əhatəli bazar məkanının mövcudluğu, hərbi tələb effekti, ticarət şəbəkəsindəki əmtəə ehtiyatları səbəb ola bilər.

## *2. BAZAR İQTİSADİYYATLI ÖLKƏLƏRDƏ QİYMƏTLƏRİN VƏ PUL TƏDAVÜLÜNÜN TƏNZİMLƏNMƏSİNİN XÜSUSİYYƏTLƏRİ*

Mərkəzi bankın tənzimləyici fəaliyyətinin əsasını makroiqtisadi göstəricilərin, ilk növbədə ÜDM və milli gəlir, qiymətlər indeksi, işsizliyin səviyyəsi, dövlət büdcəsinin kəsiri dinamikalarının təhlili təşkil edir.

İqtisadi geriləmə və işsizlik, istehsalın azalması dövrlərində istehsala maliyyə resurslarının investisiyasını stimullaşdırmaq üçün pul təklifini, istehlak xərclərini stimullaşdırmaq üçün isə məcmu tələbi artırmaq lazımdır.

Qiymət artımı ilə müşaiyət olunan iqtisadi inkişaf dövründə pul təklifini azaltmaq lazım gəlir ki, Mərkəzi banklar da məhz bununla məşğul olurlar.

Qiymətlərin müasir artımının səbəblərini pul tədavülünü pozan amillər arasında axtarmaq lazımdır. Dünya iqtisadi ədəbiyyatında bütün ölkələr üçün qiymətlərin artımının adətən aşağıdakı ümumi səbəbləri göstərilir:

1) pul kütləsinə lazımi nəzarətin olmaması və kağız pulların əsassız emissiyası;

2) dövlət sektorunun inkişafı və iqtisadiyyata dövlətin qarışması;

3) iri inhisarların timsalında böyük səlahiyyət sahibi olan xüsusi təsisatların meydana gəlməsi;

4) gəlirlərin indeksləşdirilməsi mexanizmlərinin fəaliyyəti.

*Pul kütləsinə lazımi nəzarətin olmaması və kağız pulların əsassız emissiyası* dövləti təmsil edən Mərkəzi bank tərəfindən səmərəsiz pul siyasəti aparıldıqda baş verir. Bunun nəticəsində də tədavüldə əmtəələrlə təmin olunmayan artıq pul kütləsi əmələ gəlir.

Pul bazarının təhlilindən aydın olur ki, Mərkəzi bankın əsas vəzifəsi iqtisadiyyatı lazım olan miqdarda pulla təmin etməkdən və onun inflyasiyasız işləməsi üçün uzunmüddətli şəraiti yaratmaqdan ibarətdir. İnkişaf etmiş bazar təsərrüfatlı ölkələrin təcrübəsi göstərir ki, səmərəli pul siyasəti olmadan istehsalın yaxınlaşmaqda olan azalmasını aradan qaldırmaq və ya fond birjasında səhmlərin məzənnəsinin getdikcə aşağı düşməsini dayandırmaq çox çətindir. Belə hallarda Mərkəzi bank, adətən, pul təklifini artırmağa başlayır. Mərkəzi bankın bu tədbirinə pul bazarı onların qiymətinin azalması ilə cavab verir. Belə ki, kredit ucuzlaşır və sahibkarlar üçün əlverişli olur. Yəni, banklardan və ya fond birjasından borc götürən sahibkarlar mənfəətlərinin bir hissəsinə qənaət edərək, onları real iqtisadiyyatın investisiyasına yönəldir, istehsalı və satışı çoxaldırlar. Dövlət büdcəsinin kəsirini ödəmək üçün vəsait tələb olunduqda da Mərkəzi bank pul kütləsinin həcmini artırır.

Belə şəraitlərdə tədavüldə olan pulun miqdarı çoxalır. Əgər pul kütləsinin artım sürəti pul bazarının uzunmüddətli tarazlıq şəraiti çərçivəsindən kənara çıxmırsa, onda pulun qiymətdən düşməsi baş vermir. Çünki daha çox əmtəə axınına xidmət etmək üçün iqtisadiyyata lazım olduğu qədər təsir göstərir.

*Dövlət sektorunun inkişafı və iqtisadiyyata dövlətin qarışması* dövlət gəlirləri və xərclərinin qeyri-tarazlığına gətirib çıxardır. Nəticədə büdcə kəsirinin maliyyələşdirilməsi nəzarət olunmayan emissiya hesabına baş verir və pul tədavülündə əmtəə kütləsinin müvafiq artımı ilə təmin olunmayan böyük miqdarda pul kütləsi yaranır. Dövlət bu yolla istehsalı nizamlamağa çalışır. Dövlətin cari problemlərin öhdəsindən tez gəlməyə cəhd göstərməsi, Mərkəzi bankın onlardan hər hansı birinin həllinə cəlb edilməsi, inflyasiyalı pul siyasətinin uzunmüddətli mənfi nəticələrinə səthi yanaşma onun əsil funksiyalarının yaddan çıxarılmasına səbəb olur. Bu da Mərkəzi bankın fəaliyyətinin iqtisadi mənasını kökündən dəyişdirir. Belə ki, o, iqtisadiyyatı əsassız qiymət ar-

tımından qorumaq əvəzinə, tədavülü artıq kağız pullar ilə doldurmaqla, qiymətlərin daha da yüksəlməsinə şərait yaradır.

Qiymətlərin artmasına həmçinin *gəlirlərin indeksləşdirilməsi mexanizmləri* təsir göstərir. Həmin mexanizmlər iqtisadiyyatın fəaliyyəti prinsiplərini əsaslı surətdə dəyişdirir. Bazar iqtsadiyyatı şəraitində qiymətlərin cüzi artımı məşğulluğun yüksəlməsi, istehsal güclərinin yüklənməsi və hətta real əmək haqqının çoxalması ilə müşaiyət oluna bilər. Burada yaxşı cəhətlər pul təsərrüfatındakı lüzumsuz gərginliklə bağlı çatışmazlıqlardan çox olur. Lakin qiymətlərin artımı istehsal xərclərinin çoxalması, əmək haqqının yüksəlməsi ümumi bahalaşma ilə müşaiyət olunan spiralvari xarakter alır. Daha yüksək qiymətlər istehlakçıları alqıdan çəkindirmir, lakin onların gözləmələrini daha çox aqressiv edir. Hökumət sosial sabitliyi təmin etməyin və sosial bərabərsizliyin qabağını almağın zəruriliyini əsas tutaraq əmək haqqını, pensiyaları, sosial müavinətləri istehlak qiymətlərinin artımı miqdarında indeksləşdirməlidir. Əmtəələrlə təmin olunmayan kağız pula malik vətəndaşlar qiymətlərin növbəti artımını gözləyir və əmtəələri alıb yığırlar. İstehsalçılar nəinki tələbə təklifin artırılması ilə cavab vermir, hətta məhsul buraxılışının artırılmasında da maraqlı olmurlar. Çünki qiymətlərin yüksəlməsi şəraitində onlar sürətlə artan xərcləri ödəməyə nail ola bilmirlər. Nəticədə yeni manatlar əmtəələrin qiymətlərinin süni surətdə yüksəlməsinə səbəb olur.

Artan qiymətlər tədricən dövlət nəzarətindən çıxır. Bu zaman pulu necə qazanmaq deyil, onu necə ağıllı xərcləmək problemi yaranır. Qiymətlərin yüksəlməsi istehsalın birbaşa azaldılmasına, əhalinin real gəlirlərinin kəskin surətdə aşağı düşməsinə, gəlirlərin indeksləşdirilməsi ilə ödənilə bilməyən itkisinə səbəb olur. Qiymətlərin artması vətəndaşların əmanətlərini dəyərdən salır, çünki müddətli əmanətlər üzrə faiz dərəcəsi qiymət artımının yerini doldura bilmir. Deməli, əmanətçilərin sonraya saxladıqları alıcılıq qabiliyyəti tədricən azalır.

Belə vəziyyətdə pul öz adi funksiyalarını yerinə yetirə bilmir. Müəssisələr tədiyə vasitəsi kimi pulu qəbul etmirlər. Çünki onların alındığı və istifadə edildiyi zaman kəsiyində pulun daha da qiymətdən düşməsi baş verir. İqtisadiyyat az səmərəli olan barterə, yəni müxtəlif növ pul surroqatlarından*, o

---

*surroqat – bir şeyi yalnız qismən əvəz edə bilən başqa şeydir.

cümlədən real təminatı olmayan veksellərdən istifadəyə, qarşılıqlı hesablaşmaların tətbiq olunmasına və i.a. doğru gedir. Beləliklə, iqtisadiyyata əlavə sabitsizlik gətirən qiymət uyğunsuzluğu dərinləşir.

Qiymətlərin artmasının intensivliyi iqtisadiyyatın strukturundan, bazarın vəziyyətindən, orada rəqabət şəraitinin və ya inhisarçı hökmranlığının mövcud olmasından çox asılıdır. Qiymətlərin artımı xüsusilə *bazarın yüksək dərəcədə inhisarlaşdığı* iqtisadiyyata xasdır. İqtisadiyyatda inhisar özlüyündə qiymətlərin artımına səbəb olmasa da, ona fəal kömək edir və gücləndirir.

İnhisarlar bazarda hökmranlığını saxlamaq üçün nəinki öz məhsullarına yüksək qiymətlər qoyur və onun səviyyəsini saxlayır, həm də istehsalın və təklifin həcmini azaltmağa çalışırlar. Bu məcmu tələb və təklifin nisbətinə son dərəcə mənfi təsir göstərməklə onların arasındakı uyğunsuzluğu artırır. İnhisarçı strukturlar bazar mexanizmlərini dağıtmaqla, təklifin qiymət elastikliyini aşağı salır, istehsalın tələbin enib-qalxmasına cavab verməsini ləngidir, inflyasiya tarazlığını uzadır. Rəqabətli iqtisadiyyatda da qiymətlərin artması mümkündür, inhisarçılıq isə onu əlavə olaraq sürətləndirir.

Dövlət öz fəaliyyətinin iri miqyaslı təşkilati dəyişikliyini həyata keçirdikdə də qiymətlərin gözlənilməz artımı ehtimalı ilə hesablaşmalıdır. Sahibkar, mənfəət itkisindən və bu halda gələcəkdə xərclərin hökmən artacağından ehtiyat edərək, vaxtında qiymətləri artırır. Bu yolla da o, gələcək zərərlərini əvvəlcədən ödəməyə çalışır. Dünya iqtisad elmində bu hadisə "*qiymət əlavəsi inflyasiyası*" adını almışdır. Qiymətlərin artmasından kapitalın yavaş dövr etdiyi, istehsalın mövsümi xarakter daşıdığı, ixtisaslaşma dərəcəsinin daha yüksək olduğu sahələrdə çalışan sahibkarlar daha çox əziyyət çəkirlər. Bu sahələr bazar dəyişikliklərinə ləng reaksiya göstərir və onlarda istehsalın həcminin azaldılması və ya artırılması üçün daha uzun vaxt tələb olunur. Məsələn, bu səbəblər Qərb ölkələrinin kənd təsərrüfatında məhsulun ifrat istehsalını şərtləndirir, tez xarab olan məhsulları tədarük edən fermerlər üçün xüsusi çətinliklər törədir. Azərbaycanda hələlik belə hal müşahidə olunmur. Qiymətlərin artmasının nəticələrini zəiflətmək üçün istehsal amillərinin, yəni torpağın, kreditin, texnikanın daha asan əldə olunmasını təmin edən köklü dəyişikliklərin aparılması məqsədəuyğundur.

Qiymətlərin artmasına əmtəə istehsalının çoxaldılması alternativ olmamalıdır. İstehsalın artırılması idxalın genişləndirilməsi ilə əvəz oluna bilər. Lakin bunun üçün xarici valyuta lazımdır. Xarici valyuta axınının əsas mənbəyi isə ixracdır. Bəzi hallarda daxil olan valyutanın çox hissəsi xarici borcun ödənilməsinə yönəldilir. Buna görə də belə şəraitdə ölkəyə idxal çox yox, az olur. Deməli, yeni pulların dövriyyəyə buraxılması əmtəələrin qiymətinin artmasını təmin edir.

Beləliklə, inflyasiyanın əsas amilləri milli iqtisadiyyatın daxilində cəmlənmişdir. Lakin onun hüdudlarından kənarda yerləşən amillər də mövcuddur.

### *3. QİYMƏTLƏRİN ARTMASININ VALYUTA MƏZƏNNƏSİNƏ VƏ BEYNƏLXALQ TİCARƏTƏ TƏSİRİ*

İndi də qiymətlərin artmasının valyuta məzənnəsinə təsirini nəzərdən keçirək. Mərkəzi bank tərəfindən qiymət artımının tənzimlənməsi siyasəti valyuta məzənnəsinə bilavasitə təsir göstərir. Valyuta məzənnəsi isə öz növbəsində xeyli dərəcədə beynəlxalq ticarəti müəyyən edir. Burada söhbət *idxal olunan inflyasiyadan*, yəni inflyasiyanın dünya ticarəti kanalları ilə köçürülməsindən gedir. Belə ki, idxal edilən xammal və enerjidaşıyıcıların qiymətlərinin artması xərclər inflyasiyası mexanizminə yeni təkan verir.

Daha yüksək faiz dərəcəsi axtarışı ilə sərhəddi keçən qısamüddətli möhtəkir kapitalların axını qiymətlərin yüksəlməsinin əlavə amilinə çevrilir. Əgər, məsələn, bir ölkənin bankları qısamüddətli depozitlər* üzrə illik 5%, digər ölkənin bankları isə – 7% ödəyirsə, sonuncu dərəcə kapitalları birinci ölkədən çəkib gətirir. Bu vəsaitləri əldə edən ikinci ölkənin bankları onların bir hissəsini kreditlərə çevirməklə tədavüldə hərəkət etdirir. Nəticədə arxasında heç bir əmtəə təklifi dayanmayan əlavə pul kütləsi yaranır. Bunun hesabına da ikinci ölkənin iqtisadiyyatında baş verən inflyasiya prosesi daha intensiv xarakter alır. Faiz dərəcələri nisbəti əsaslı surətdə dəyişildikdə isə kapitalların əks istiqamətə yerdəyişməsi başlayır. Əgər əmanətlərə görə birinci ölkənin bankları ikinci ölkənin banklarından çox ödəyirsə, onda kapitallar ikinci

*müəyyən məqsədlər üçün bank və ya digər kredit idarələrinə saxlanılmağa qoyulan pul və qiymətli kağızlardır.

ölkəni tərk edərək inflyasiya təhlükəsini artıq birinci ölkənin iqtisadiyyatına keçirirlər.

Milli pul vahidinin möhkəmlənməsi və alıcılıq qabiliyyətinin saxlanması üçün onun valyuta məzənnəsindən asılılığı xüsusi əhəmiyyət kəsb edir. Mərkəzi bank tərəfindən valyuta məzənnəsi (*xarici valyuta vahidlərində milli valyutanın qiyməti*) qəsdən aşağı salındıqda daxili bazarda qiymətlərin kəskin artımı baş verir. Əgər xarici valyuta təklifi ona olan tələbdən xeyli çoxdursa, bu zaman kommersiya banklarının sərbəst vəsaitləri valyuta bazarına çıxardılır. İdxala nisbətdə daxili bazar az tutumlu olduqda, bu cür tədbirlərin inflyasiya nəticələri ciddi olmaqla, daxili bazarda qiymətlərin xeyli artımına gətirib çıxarda bilər.

Əgər milli valyutasının məzənnəsi möhkəmlənirsə, belə valyutaya malik dövlətin əmtəələrinin qiyməti artdığına görə onlar xarici bazarlarda daha az rəqabətqabiliyyətli olurlar. Fərz edək ki, məzənnənin dəyişilməsi milli valyutada ixracçının qiymətini dəyişdirmir. Lakin həmin qiyməti idxalçının valyutasına çevirdikdə, valyuta məzənnəsinin qalxmasına müvafiq surətdə qiymət artımı baş verir.

Eyni zamanda idxalçılar belə dəyişiklikdən ancaq qazanırlar. Belə ki, milli valyuta ilə yenidən hesablandıqda idxal əmtəələrinin qiyməti azalır və onlar ya mənfəət normasını artırmaq və ya satışı genişləndirmək üçün çox yaxşı imkan əldə edirlər.

Əgər milli valyuta qiymətdən düşürsə, onda tərəflər yerlərini dəyişirlər. Yəni xarici bazarlarda əmtəələrin qiyməti artdığına görə ixracın səmərəliliyi yüksəlir. Bu zaman idxalçılar qiymətlərin aşağı salınması və mənfəət normasının azaldılması zərurəti ilə qarşılaşırlar. Çünki onların gətirdikləri əmtəələr daxili bazarda baha qiymətə olurlar.

Məzənnənin dəyişilməsi xarici ticarət saldosuna təsir göstərir. Milli valyutanın məzənnəsinin aşağı salınması ixracı stimullaşdırır və mümkün idxalı məhdudlaşdırır. Deməli, ya xarici ticarətdəki kəsir azalır, ya da aktiv saldo artır. Məzənnənin möhkəmlənməsi qütblü (*ziddiyyətli*) təsir göstərir. Belə ki, idxalın səmərəliyi artır, ixracın səmərəliyi aşağı düşür, aktiv saldo azalır və ya xarici ticarət kəsiri çoxalır.

Mərkəzi bank tərəfindən pul-kredit siyasətinə yenidən baxılması nəticəsində bu proseslər güclənir.

Ekspansiya (*genişləndirmə*) tədbirləri pul kütləsinin artırılmasına və faiz dərəcəsinin aşağı salınmasına gətirib çıxardır. Faiz dərəcəsinin azaldılması müəyyən valyutaya vəsaitləri qoyulmasının nisbi cazibədarlığını dəyişir, yəni ona tələb aşağı düşür, təklif isə artır. Buna görə də məzənnə enir. Daha sonra yuxarıda təsvir olunan mexanizmin təsiri başlayır: məzənnə – xalis ixrac (*idxal*) – xarici ticarət saldosu.

Restruktiv* pul-kredit siyasəti pul kütləsini azaldır, kreditin mümkünlüyünü aşağı salır və faiz dərəcəsini artırır. Milli valyuta cəlbedici aktivə çevrilir və ona tələb artır, təklifi isə azalır. Yenə də həmin mexanizm işə düşür.

Beləliklə, pul-kredit siyasəti valyuta məzənnəsinə və xarici ticarət balansına təsir göstərir. Ekspansiya siyasəti milli valyutanın məzənnəsini aşağı salır və ixracı stimullaşdırır, restruktiv siyasət isə məzənnəni yüksəldir, idxalı həvəsləndirir və bununla da xarici ticarət saldosunu azaldır, ya da xarici ticarətin kəsiri problemini dərinləşdirir. Qiymətlərin sabitləşməsinə aparan bahalı pullar siyasəti istehsalın həcminin və məşğulluğun azalmasına səbəb olur, xalis idxalı artırır, xarici ticarət problemini yaradır.

Xarici ticarət əməliyyatlarının səmərəliyinin dəyişilməsini hesablayarkən monetar tənzimləmənin təsiri altında pul kütləsinin həcminin dəyişilməsi nəticəsində baş verən inflyasiya və deflyasiya effektlərini nəzərə almaq lazımdır.

Valyuta məzənnələrinin enib-qalxması iqtisadiyyatın vəziyyətinə ciddi təsir etdiyinə görə onların tənzimlənməsi Mərkəzi bankın pul-kredit siyasətinin ən mühüm məqsədi sayıla bilər. Bazar iqtisadiyyatının inkişaf etdiyi ölkələrin Mərkəzi bankları xarici valyuta bazarlarına müdaxilə edərək, milli və xarici valyutaların təklifini artırmaq, yaxud da azaltmaqla onların tələbinə təsir göstərirlər.

Devalvasiya zamanı emissiya hüququna malik olan Mərkəzi bank, həmişə lazımi miqdarda milli pul vahidləri buraxa bilər. Revalvasiya (*məzənnənin möhkəmləndirilməsi*) üçün xarici valyuta tələb olunur. Deməli, milli valyutanın müdafiəsini təmin etmək üçün Mərkəzi bank ehtiyat fondları yaratmalı və başqa dövlətlərdən borc almalıdır.

---

*Mərkəzi bankın kommersiya banklarına verdiyi kreditlərin məhdudlaşdırılması

İri miqyaslı müdaxilə bank sisteminin ümumi ehtiyatlarına təsir göstərdiyi üçün valyuta məzənnəsinin dəyişilməsi təşəbbüsünü monetar tənzimləmənin digər tədbirlərindən ayırmaq xeyli çətindir. Bu məqsədlər üçün qarışıq iqtisadiyyata malik inkişaf etmiş dövlətlərin bir çoxunun Mərkəzi bankları təmizləmədən (*sterilizasiyadan*) istifadə edirlər. Bu halda xarici valyuta müdaxiləsi dövlət qiymətli kağızlarının daxili bazarındakı əməliyyatlarla kompensasiya edilir. Məsələn, dolların devalvasiyası zamanı ABŞ-ın Federal ehtiyat sistemi xarici ticarətdəki kəsiri azaltmaq məqsədilə qiymətli kağızları təkrar bazara, dolları isə xarici valyuta bazarına çıxardır. Dollar pul kütləsinin iki əks istiqamətdə dəyişilməsi baş verir və bu dəyişikliklər qarşılıqlı ödənilir.

Beləliklə, xarici ticarət əməliyyatlarına valyuta nəzarətinin gücləndirilməsi ölkə iqtisadiyyatı əmtəələrinin çoxunun sabit qiymətlərinin saxlanılmasına yönəldilmişdir.

Seminar sualları:

1.Pul bazarları və onların mahiyyəti
2.Pul tədavülü qanunu və onun fəaliyyəti
3.Azərbaycanda pul tədavülünün tənzimlənməsi
4.Bazar iqtisadiyyatı şəraitində pul tədavülünün tənzimlənməsi xüsusiyyətləri
5.Qiymətlərin artımı və gəlirlərin indeksləşdirilməsi
6.Qiymət artımı və valyuta məzənnəsinə onun təsiri
7.Pul siyasətləri və onların mahiyyəti